**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏRKƏZİ ELMİ KİTABXANA**

***Azərbaycanın***
***elm və mədəniyyət***
***xadimləri***

# MUXTAR KAZIM oğlu
# İMANOV

**BİOBİBLİOQRAFİK GÖSTƏRİCİ**

***60 illiyinə həsr olunur***

**Bakı – «Elm» – 2018**

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ЦЕНТРАЛЬНАЯ НАУЧНАЯ БИБЛИОТЕКА**

***Деятели***
***науки и культуры***
***Азербайджана***

# МУХТАР КАЗИМ оглы ИМАНОВ

## БИОБИБЛИОГРАФИЧЕСКИЙ УКАЗАТЕЛЬ

***Посвящается 60-летию***

**Баку – «Элм» – 2018**

AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
CENTRAL LIBRARY OF SCIENCE

*Prominent representatives*
*of Azerbaijani*
*science and culture*

# MUKHTAR KAZİM oglu İMANOV

**BIOBIBLIOGRAPHIC INDEX**

***Dedicated to the 60$^{th}$ anniversary***

**Baku – «Elm» – 2018**

*Azərbaycan Milli Elmlər Akademiyası*
*Rəyasət Heyətinin qərarı ilə çap olunur*

**UOT** 016:398 (479.24)
**KBT** Я19:Ш3 (5Азе)

**Tərtibçi:** **Nailə Əskər**
*AMEA Folklor İnstitutu, böyük elmi işçi*

**Elmi redaktor:** **Kəmalə Məmmədova**
*ADMİU-nun Kulturologiya fakültəsi, müəllim. BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsi, müəllim*

**M81**

**Muxtar Kazım oğlu İmanov** [Mətn] : biobiblioqrafik göstərici / tərt. N.Əskər; elmi red. K.Məmmədova. – Bakı: Elm, 2018. – 129 s.

**İSBN**

*Bu biobiblioqrafik göstərici akademik Muxtar Kazım oğlu İmanovun həyatı və elmi fəaliyyətinin əsas tarixlərini, əsərlərinin biblioqrafiyasını - kitab, məqalə və məruzələrini, həmçinin alim haqqında yazılmış mənbələri və s. əks etdirir.*

*Biobiblioqrafik göstərici folklorşünaslıq və ədəbiyyatşünaslıq sahəsində çalışan alim və mütəxəssislər, ali məktəb tələbələri, o cümlədən geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

© *AMEA Mərkəzi Elmi Kitabxanası, 2018*
© *“Elm” nəşriyyatı, 2018*

# TƏRTİBÇİDƏN

Akademik Muxtar Kazımoğlu-İmanovun əsərlərinin biobiblioqrafik göstəricisi 1972-2018-ci illəri əhatə edir. Burada Muxtar Kazımoğlu-İmanovun həyatı, yaradıcılığı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixlərinə diqqət yetirilmişdir.

Biobiblioqrafik göstəricidə Muxtar Kazımoğlu-İmanovun monoqrafiyaları, tərtib etdiyi və nəşrə hazırladığı kitablar; elmi simpozium, konqres, konfrans, sessiya materiallarında, dövri mətbuat səhifələrində, ədəbi-bədii toplularda çap olunmuş elmi, publisistik və ədəbi yazıları; bədii tərcümələri; müsahibələri, həmçinin alimin elmi rəhbər, rəsmi opponent olduğu və rəy verdiyi dissertasiyalar qeyd olunmuşdur.

M.Kazımoğlu-İmanovun türk və rus dillərindəki məruzə, məqalə və tezislərinin çap olunduğu kitabların, redaktə etdiyi, rəy verdiyi kitabların adları da vəsaitdə öz əksini tapmışdır.

M.Kazımoğlu-İmanovun Azərbaycan elminin inkişafında rolu, xüsusən AMEA Folklor İnstitunun direktoru olduğu illərdəki fədakar əməyi unudulmamış, həyatı, yaradıcılığı haqqında Azərbaycan və əcnəbi alimlər tərəfindən müxtəlif səpkidə yazılmış məqalələrin adları vəsaitdə ayrıca bölmədə yer almışdır.

Biobiblioqrafik göstəricidə bütün materiallar bölmələr üzrə ayrılmış, qruplaşdırılmış və xronoloji qaydada daxili əlifba ardıcıllığı ilə yerləşdirilmişdir. Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə sonda M.Kazımoğlu-İmanovun əsərlərinin, həmçinin müştərək müəlliflərin əlifba göstəriciləri də təqdim edilmişdir.

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

**QƏRAR**

**№ 10/9**

Bakı şəhəri 20 may 2015-ci il

**AMEA-nın müxbir üzvü Muxtar İmanovun 60 illik yubileyi haqqında**

2015-ci il may ayının 28-də görkəmli folklorşünas alim, filologiya üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü Muxtar Kazım oğlu İmanovun 60 yaşı tamam olur.

AMEA-nın müxbir üzvü Muxtar İmanov 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş, 1984-cü ildə namizədlik, 2007-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 2014-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

1977-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Həmzəli kənd orta məktəbində müəllim kimi əmək fəaliyyətinə başlayan Muxtar İmanov AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, Folklor İnstitutunda böyük və aparıcı elmi

işçi vəzifələrində çalışmışdır. O, 2011-ci ildən AMEA-nın Folklor İnstitutunun direktorudur.

AMEA-nın müxbir üzvü Muxtar İmanov bir müddət "Yazıçı" nəşriyyatının baş redaktoru olmuşdur. Hazırda Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında "Ədəbiyyat" fənni üzrə elmi-metodiki seminarın rəhbəri və Ekspert Şurasının sədri, həmçinin, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvüdür.

Muxtar İmanov "Müasir Azərbaycan nəsrində psixologizm", "Gülüşün arxaik kökləri", "Xalq gülüşünün poetikası", "Folklorda obrazın ikiləşməsi", "Folklor həm keçmiş, həm də bugündür" kimi 7 monoqrafiya və kitabın, 120-dən artıq elmi əsərin, 115 məqalənin müəllifidir. Onun Rusiya, Türkiyə, Ukrayna, Qazaxıstan və s. xarici ölkələrdə elmi əsərləri və məqalələri nəşr olunmuşdur.

Görkəmli folklorşiinas alimin elmi əsərləri Azərbaycan nəsrində bədii psixologizm probleminin nəzəri əsaslarının müəyyənləşdirilməsinə, Azərbaycan xalq gülüş mədəniyyəti ilə bağlı elmi konsepsiyanın yaradılmasına, folklorşünaslığın bir sıra aktual problemlərinə həsr olunmuşdur.

İlk dəfə onun araşdırmalarında Azərbaycan yazılı və şifahi ədəbiyyatında qəhrəman və əvəzedici, qəhrəman və antiqəhrəman problemləri araşdırma predmetinə çevrilmiş, bədii obrazın ikiləşməsinin mifdən gələn və folklorun müxtəlif janrlarında əksini tapan, yazılı ədəbiyyatda daha mürəkkəb şəkildə ortaya çıxan səciyyəvi modelləri müəyyənləşdirilmişdir.

AMEA-nın müxbir üzvü Muxtar İmanov yazılı ədəbiyyat və folklor münasibətlərinə yeni baxış gətirmiş, ədəbi düşüncənin yazılı və şifahi laylarına etnik bədii özünüifadənin müxtəlif kodları kimi yanaşılmasının ilk nəzəri təhlil standartlarını təqdim etmişdir.

Görkəmli alim Azərbaycan folklorunun toplanması, tərtibi və nəşr olunması sahəsində xidmətlər göstərmişdir. O, “Zəngəzur folkloru” (Azərbaycan folkloru antologiyası, Vll kitab) və 9 cildlik “Qarabağ: folklor da bir tarixdir” toplularının layihə rəhbəri və həmmüəllifıdir.

O, Türkiyə, Şimali Kipr Respublikası, Gürcüstan, Rusiya və digər ölkələrdə keçirilmiş bir sıra beynəlxalq konfrans və simpoziumlarda Azərbaycan folklorşünaslıq elmini layiqli təmsil etmişdir.

AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru Muxtar İmanovun Azərbaycan folklorşünaslıq elminin inkişafındakı xidmətlərini nəzərə alaraq, anadan olmasının 60 illiyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın müxbir üzvü Muxtar Kazım oğlu İmanovun 60 illik yubileyi ilə əlaqədar təltif edilməsi haqqında müvafiq dövlət orqanları qarşısında vəsatət qaldırılsın.

2. AMEA-nın müxbir üzvü Muxtar Kazım oğlu İmanov AMEA-nın Fəxri Fərmanı ilə təltif edilsin.

3. AMEA-nın Folklor İnstitutuna tapşırılsın ki, AMEA-nın müxbir üzvi Muxtar İmanovun 60 illiyinə həsr edilmiş elmi sessiya keçirilsin.

4. AMEA-nın Mərkəzi Elmi Kitabxanasına (tibb elmləri üzrə fəlsəfə doktoru Leyla İmanova) və “Elm” Nəşriyyat-Poliqrafiya İdarəsinə (Hafiz Abıyev) tapşırılsın:

4.1 AMEA-nın müxbir üzvü Muxtar İmanovun əsərlərinin biblioqrafik göstəricisi hazırlanıb nəşr edilsin;

4.2 Hazırlanmış materiallar Milli Rəqəmsal Yaddaşda yerləşdirilsin;

4.3 “Muxtar İmanov” adlı elektron məlumat bazası yaradılsın.

5. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik **Akif Əlizadə**
AMEA-nın akademik-katibi akademik **Rasim Əliquliyev**

## MUXTAR KAZIM OĞLU İMANOVUN HƏYATI, YARADICILIĞI, ELMİ-PEDAQOJİ VƏ İCTİMAİ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

**Muxtar Kazım oğlu İmanov** 28 may 1955-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Axura kəndində anadan olmuşdur.

| | |
|---|---|
| **1962-1970-ci illər** | –Axura kənd səkkizillik məktəbində təhsil almışdır. |
| **1970-1972-ci illər** | –İliç (indiki Şərur) qəsəbə orta məktəbində təhsil almışdır. |
| **1972-1977-ci illər** | –Azərbaycan Dövlət Universitetinin (hal-hazırda Bakı Dövlət Universiteti) Filologiya fakültəsində təhsil almışdır. |
| **1977-1980-ci illər** | –Naxçıvan MR Şərur rayonunun Həmzəli kənd səkkizillik məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləmişdir. |
| **1980-1983-cü illər** | –Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi üzrə əyani aspiranturasında təhsil almışdır. |
| **1984-cü il** | –“Müasir Azərbaycan nəsrində psixologizm” mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. |

| | |
|---|---|
| **1983-1992-ci illər** | − Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun Mifologiya şöbəsində kiçik elmi işçi, elmi işçi və böyük elmi işçi vəzifələrində çalışmışdır. |
| **1992-2000-ci illər** | −“Yazıçı” nəşriyyatının baş redaktoru olmuşdur. |
| **1999-cu il** | −Bələdiyyə seçkilərində iştirak etmiş və Bakı şəhərindəki M.Ə.Rəsulzadə Bələdiyyəsinə üzv seçilmişdir. |
| **2000-2003-cü illər** | −M.Ə.Rəsulzadə Bələdiyyəsində Sosial və Ekoloji Məsələlər Daimi Komissiyasının sədri olmuşdur. |
| **2001-2003-cü illər** | −AMEA “Folklor Sarayı” Elmi-Mədəni Mərkəzində böyük elmi işçi kimi çalışmışdır. |
| **2003-2011-ci illər** | −AMEA Folklor İnstitutunda Türk xalqları folkloru şöbəsinin aparıcı elmi işçisi olmuşdur. |
| **2007-ci il** | −“Azərbaycan folklorunda gülüşün genezisi və poetikası” mövzusunda doktorluq dissertasiyası müdadiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır.<br>−“Dədə Qorqud” jurnalı redaksiya heyətinin üzvü olmuşdur. |
| **2011-ci il** | −AMEA Folklor İnstitutunun direktoru seçilmişdir. |

–“Folklorşünaslıq” ixtisası üzrə elmi dissertasiyaların Müdafiə Şurasının və Folklor İnstitutu Elmi Şurasının sədri seçilmişdir.
–Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında Azərbaycan dili və Ədəbiyyat fənnləri üzrə Elmi-Metodiki Seminarın rəhbəri və Ekspert Şurasının sədri seçilmişdir.
–İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvü seçilmişdir.
–“Folklor və etnoqrafiya” elmi jurnalının redaksiya heyətinin üzvü seçilmişdir.
– “Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər” jurnalının baş redaktoru olmuşdur.

**2012-ci il** –Türkiyədə Xalq Oyunları Egitim və Öyretim Vaqfının nəşr etdirdiyi “Motif” elmi jurnalının redaksiya heyətinin üzvü seçilmişdir.

**2013-cü il** – Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu və YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının beynəlxalq xarakterli 2-ci “Şuşa qrantı” birgə müsabiqəsinin qalibi olmuşdur.
–Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında Ədəbiyyat fənni üzrə Elmi-Metodiki Seminarın rəhbəri və Ekspert Şurasının sədri seçilmişdir.

| | |
|---|---|
| | −Türkiyənin Giresun Universitetinin buraxdığı "Türk dili və ədəbiyyatı" elmi jurnalının redaksiya heyətinin üzvü seçilmişdir. |
| **2014-cü il** | −AMEA-nın müxbir üzvü seçilmişdir. |
| **2015-ci il** | −Elmin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu ilə təltif edilmişdir.<br>−AMEA Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir. |
| **2016-cı il** | −Türkologiya" jurnalı baş redaktorunun müavini seçilmişdir.<br>−"Arxetip" jurnalının baş redaktoru seçilmişdir. |
| **2017-ci il** | −İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının sədri seçilmişdir.<br>−Yenidən AMEA Folklor İnstitutunun direktoru seçilmişdir.<br>−AMEA-nın həqiqi üzvü seçilmişdir. |

# MUXTAR KAZIM OĞLU İMANOVUN HƏYATI, YARADICILIĞI, ELMİ-PEDAQOJİ VƏ İCTİMAİ FƏALİYYƏTİ HAQQINDA QISA OÇERK

Muxtar Kazım oğlu İmanov 28 may 1955-ci ildə Naxçıvan MR Şərur rayonunun Axura kəndində anadan olmuşdur. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin (hal-hazırda Bakı Dövlət Universiteti) Filologiya fakültəsini bitirmişdir. 1980-1983-cü illərdə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun ədəbiyyat nəzəriyyəsi üzrə əyani aspiranturasında təhsil almışdır. 1984-cü ildə filologiya üzrə fəlsəfə doktoru, 2007-ci ildə filologiya üzrə elmlər doktoru elmi dərəcəsini almışdır. 2014-cü ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

M.Kazımoğlu əmək fəaliyyətinə Naxçıvan MR Şərur rayonunun Həmzəli kənd səkkizillik məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi başlamışdır (1977-1980). Aspirantura təhsilindən sonra, 1983-1992-ci illərdə Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun Mifologiya şöbəsində kiçik elmi işçi, elmi işçi və böyük elmi işçi vəzifələrində çalışmışdır. 1992-2000-ci illər arasında "Yazıçı" nəşriyyatının baş redaktoru olmuşdur.

1999-cu ildə Bələdiyyə seçkilərində iştirak etmiş və Bakı şəhərindəki M.Ə.Rəsulzadə Bələdiyyəsinə üzv seçilmişdir. 2000-2003-cü illərdə M.Ə.Rəsulzadə Bələdiyyəsində Sosial və Ekoloji Məsələlər Daimi Komissiyasının sədri olmuşdur.

2001-2003-cü illərdə AMEA "Folklor Sarayı" Elmi-Mədəni Mərkəzində böyük elmi işçı kimi çalışmışdır. Mərkəz 2003-cü ildə Folklor İnstitutuna çevrildikdən sonra Türk xalqları folkloru şöbəsinin aparıcı elmi işçisi olmuşdur. 2011-ci ildən AMEA Folklor İnstitutunun direktorudur.

M.Kazımoğlu ədəbiyyatşünaslıq və folklorşünaslıq sahələrində tanınmış alimdir. Onun Azərbaycan nəsrində psixologizmin bədii əksetdirmə prinsipi kimi modelləşdirilməsinə, Azərbaycan xalq gülüş mədəniyyəti ilə bağlı elmi konsepsiyanın yaradılmasına, həmçinin folklorşünaslığın aktual problemlərinə həsr edilən 8 elmi kitabı-Müasir Azərbaycan nəsrində psixologizm (Bakı: Elm, 1991); Gülüşün arxaik kökləri (Bakı: Elm, 2005); Xalq gülüşünün poetikası (Bakı: Elm, 2006); Folklorda obrazın ikiləşməsi (Bakı: Elm; 2011); Epos. Nəsr. Problemlər (Bakı: Elm və təhsil, 2011); Portretlər (Bakı: Nurlan, 2013; Folklor həm keçmiş, həm də bu gündür. (Bakı: Elm və təhsil, 2014); Sənət qayğıları **(**Bakı: Elm və təhsil, 2015), yüzdən artıq elmi məqaləsi, eləcə də çoxsaylı publisistik yazıları nəşr olunmuşdur.

Folklorun toplanması, tərtib və nəşr olunması ilə ardıcıl məşğul olan alim bu sahədə bir çox kitabların layihə rəhbəri və həmmüəlliflərindən biridir. Bir çox əsərləri xarici olkələrdə çap edilmişdir. Çox sayda beynəlxalq elmi simpozium, konfrans və konqreslərdə məruzə ilə çıxış etmişdir. M.Kazımoğlu Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu və YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının beynəlxalq xarakterli 2-ci "Şuşa qrantı" birgə müsabiqəsinin qaliblərindən olmuşdur (2013). Onun rəhbərliyi altında 7 fəlsəfə doktoru yetişmişdir. 2011-ci ildən "Folklorşünaslıq" ixtisası üzrə elmi dissertasiyaların Müdafiə Şurasının və Folklor İnstitutu Elmi Şurasının sədridir.

M.Kazımoğlu "Arxetip" jurnalının baş redaktoru, "Türkologiya" jurnalı baş redaktorunun müavini, "Dədə Qorqud", "Folklor və etnoqrafiya" jurnalları redaksiya heyətinin üzvüdür.

M.Kazımoğlu Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında Ədəbiyyat fənni üzrə Elmi-Metodiki Seminarın

rəhbəri və Ekspert Şurasının sədridir. İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvüdür.

AMEA-nın həqiqi üzvü Muxtar Kazımoğlunun elmi əsərləri müasir Azərbaycan folklorşünaslıq və ədəbiyyatşünaslıq elminin ən mürəkkəb nəzəri-konseptual problemlərinə həsr olunması baxımından diqqəti daha çox cəlb edir. AMEA Nizami adına Ədəbiyyat İnstitutunda ədəbiyyat nəzəriyyəsi üzrə aspirantura təhsili alan, akademik Məmməd Cəfər Cəfərovun elmi rəhbərliyi ilə "Müasir Azərbaycan nəsrində psixologizm" mövzusunda namizədlik dissertasiyası müdafiə edən (1984), Azərbaycan nəsrində bədii psixologizmin nəzəri prinsiplərini ədəbiyyatşünaslığımız tarixində ilk dəfə olaraq işləyib üzə çıxaran M.Kazımoğlu bu qənaətə gəlmişdir ki, yazılı ədəbiyyatdakı çoxplanlı obrazların, mürəkkəb özünüdərk səhnələri ilə yadda qalan qəhrəmanların mənşəyi folklora gedib çıxır. Bu qənaət onun tədqiqat obyektinin tədricən yazılı ədəbiyyatdan şifahi ədəbiyyata, folklora və mifologiyaya doğru dəyişməsinə, şifahi sənət və yazılı sənət müqayisəsini diqqət mərkəzində saxlamasına səbəb olmuşdur. Təsadüfi deyil ki, "Müasir Azərbaycan nəsrində psixologizm" monoqrafiyasında (1991) M.Kazımoğlu bir fəsli ("Psixoloji nəsr və folklor") şifahi və yazılı ədəbiyyat əlaqələrinə həsr etmiş, 1980-ci illərin sonlarından etibarən müxtəlif elmi məcmuələrdə folklorşünaslığa dair məqalələrlə çıxış etmiş, mütəmadi olaraq folklor ekspedisiyalarında olmuş, bir müddət sonra folklor nümunələrindən ibarət kitabını çap etdirmişdir.

M.Kazımoğlunun "Gülüşün arxaik kökləri" (Bakı: Elm, 2005) və "Xalq gülüşünün poetikası" (Bakı: Elm, 2006) monoqrafiyaları Azərbaycan folklorşünaslığının nəzəri məsələlərinin tədqiqinə yönəlmiş ciddi elmi əsərlərdir. Folklordakı gülüşün yazılı ədəbiyyatdakı gülüşdən fərqləndiyini, özünəməxsus mahiyyət və funksiya daşıdığını

açıb göstərən bu əsərlərdə Azərbaycan xalq gülüş mədəniyyəti ilə bağlı elmi konsepsiya ortaya qoyulur; xalq gülüşünün arxaik semantikası, onun mifoloji və magik mahiyyəti dərindən təhlil edilir; yazılı ədəbiyyata aid edilən "öldürücü gülüş" meyarının komik folklor nümunələrinə tətbiqinin yanlış tendensiya olması, həyatverici gülüşün aparıcı yer tutduğu folklorda komik konfliktin kəskin qarşıdurmadan uzaq olması, bu amilin isə süjetin və obrazların strukturuna əsaslı şəkildə təsir göstərməsi ilə bağlı mühüm qənaətlər irəli sürülür.

"Azərbaycan folklorunda gülüşün genezisi və poetikası" mövzusunda doktorluq dissertasiyası müdafiə edən (2007) M.Kazımoğlu bu istiqamətdə araşdırmaların davamı kimi ortaya çıxan "Folklorda obrazın ikiləşməsi" əsərində (Bakı: Elm, 2011) ilk dəfə olaraq qəhrəman və əvəzedici, qəhrəman və antiqəhrəman, qəhrəman və yalançı qəhrəman problemlərini araşdırma predmetinə çevirir; folklorda obrazın ikiləşməsinin mifdən (xüsusən əkizlər mifindən) gələn və müxtəlif janrlarda əksini tapan səciyyəvi modellərini (hökmdar və təlxək, ağıllı və axmaq, doğru və yalan, taraz və nataraz və s.) üzə çıxarır. Həmin modellərin yalnız xalq ədəbiyyatı üçün yox, bütövlükdə xalq mədəniyyəti üçün səciyyəvi olduğunu faktik material və nəzəri mülahizələrlə əsaslandıran M.Kazımoğlu Azərbaycan folklorşünaslığı üçün son dərəcə vacib olan bir məsələyə- "folklor" anlayışının yalnız xalq ədəbiyyatı ilə məhdudlaşmayıb, xalq musiqisi, xalq oyunları, xalq toxuculuğu, xalq memarlığı, xalq təbabəti, xalq geyimləri, xalq mətbəxi və s. kimi müxtəlif sahələri də özündə ehtiva etməsi məsələsinə diqqəti yönəldir. Folklor anlayışına bu cür geniş müstəvidə yanaşmaq iki cəhətdən mühüm elmi əhəmiyyət daşıyır: a) folklor etnoqrafiya ilə vəhdətdə öyrənilir; b) folklorun şifahi ənənə əsasında yaranması xüsusi olaraq nəzərə alınır.

Şifahilik məsələsini xüsusi olaraq nəzərə alan M.Kazımoğlu xalq ədəbiyyatı nümunələrinin yazılı ədəbiyyat nümunələrindən fərqli olaraq, ifa prosesində yaranmasını mühüm bir məsələ kimi diqqət mərkəzində saxlayır və bu məsələyə folklorşünaslığın təməl problemlərindən biri kimi baxır. Təsadüfi deyil ki, o, folklorun toplanması, tərtib edilməsi və araşdırılması prinsiplərinə həsr etdiyi "Folklorun toplanması və sistemləşdirilməsində bəzi təməl prinsiplər", "Koroğlu" dastanı: problemlər, mülahizələr", "Qarabağ folkloru: problemlərdən perspektivlərə doğru", "Ustad aşıq və tarixi ənənə", "Azərbaycan folklorşünaslığı: tarix və müasirlik" və s. kimi məqalələrində folklorşünasların tarixən yol verdiyi səhvlərin əksər hallarda şifahi ifaçılıq prosesini, söyləyicilik sənətinin incəliklərini nəzərə almamaqdan irəli gəldiyini diqqətə çatdırır.

M.Kazımoğlunun qənaətinə görə, bayatı, ağı, lətifə, nağıl, dastan kimi janrların ifa prosesini nəzərə almamaq həmin janrların düzgün elmi istiqamətdə yazıya alınması, tərtib olunması və araşdırılmasına ciddi şəkildə mane olur. Məsələn, sazın sözdən, sözün sazdan ayrı öyrənilməsi, aşıq şeirinin aşıq musiqisindən nə dərəcədə asılı olmasına diqqət yetirilməməsi bu sahəyə aid tədqiqatlardan bir çoxunun ciddi qüsuru kimi ortaya çıxır. Ədəbi irs və varislik məsələsinə xüsusi əhəmiyyət verən, özündən əvvəlki tədqiqatçılara böyük ehtiramla yanaşan M.Kazımoğlu Azərbaycan folklorşünaslığının ən qiymətli nümunələrini müəyyənləşdirməkdə folklorun özünəməxsusluğunu, el sənətinin qanunauyğunluqlarını nəzərə alıb-almamağı başlıca meyar hesab edir.

Azərbaycan folklorunu necə var, o şəkildə - "bəzəksiz-düzəksiz", bütün mümkün variantları ilə birgə yazıya alıb çap etmək sahəsində gördüyü işlər (Bu yurd bayquşa qalmaz / M.Kazımoğlu,V.Nəbioğlu, Ə.Əsgər. – Bakı: Yazıçı, 1995; Zəngəzur folkloru. M.Kazımoğlu, V.Nəbioğlu,

Ə.Əsgər. – Bakı: Səda, 2005; Şərur folklor örnəkləri / M.Kazımoğlu, F.Qasımova. – Bakı: Elm və təhsil, 2016; Gədəbəy folklor örnəkləri / M.Kazımoğlu, S.İsayeva. – Bakı: Elm və təhsil, 2016); AMEA Folklor İnstitutunun direktoru kimi rəhbərlik etdiyi və həyata keçirdiyi layihələr (məsələn, Qarabağ, Naxçıvan, Lənkəran-Masallı, Şəki-Zaqatala, Quba-Xaçmaz, Dərbənd, Borçalı, həmçinin Cənubi Azərbaycan layihələri) əsasında folklor çoxcildliklərinin çap olunması) M.Kazımoğlunun elmi-nəzəri baxışlarının başqa bir göstəricisidir. M.Kazımoğlunun qənaətinə görə, folklorun bədii-estetik zənginliyi və milli mahiyyəti öz ifadəsini söyləyici mətninin təbiiliyində tapır və mətn bu şəkildə elmə daha çox lazım olur.

## Muxtar Kazımoğlu: folklor və yazılı ədəbiyyat mədəni bütövlük kontekstində

Müasir Azərbaycan folklorşünaslığı dinamik inkişafda olan, bir tərəfdən müasir dünya elminin yeni nəzəri-metodoloji tendensiyalarına, digər tərəfdən qloballaşan və virtuallaşan dünyada dövlətin və cəmiyyətin mənəvi dəyərlərin qorunması ilə bağlı milli maraqlarına ən çevik intellektual reaksiya verən elm sahələrindəndir. O qədər də qədim tarixi olmayan, buna baxmayaraq zəngin elmi ənənələr üzərində qərarlaşan Azərbaycan folklorşünaslıq elmi özündə neçə-neçə görkəmli alimin, milli-mənəvi dəyərlər sevdalısı olan neçə-neçə vətəndaş-ziyalının, Vətən torpağını el-el, oba-oba gəzən neçə-neçə zəhmətkeş toplayıcının ad və imzasını cəmləşdirir. Bu adlar içərisində məhz özünün layiq olduğu statusa yüksəlmiş Muxtar Kazımoğlu (İmanov) imzası bənzərsiz istedaddan, gərgin elmi zəhmətdən, Azərbaycan xalqına və onun mədəniyyətinə səmimi bir məhəbbətdən, ən başlıcası isə elmi yaradıcılıqda klassik halallıq normalarına zərgər dəqiqliyi ilə əməl etmək mədəniyyətindən və əxlaqından yoğrulmuş 30 illik gərgin fəaliyyətin məntiqi nəticəsi və təsdiqidir.

Altmış yaşı tamam olan Muxtar Kazımoğlu ömrün bu zirvə məqamına əlidolu gəlmişdir: o, müasir Azərbaycan filoloji və folklorşünaslıq elminin tanınmış nümayəndəsidir, elmi-ictimai mühitdə sözünün çəkisi və sanbalı olan görkəmli ziyalıdır, Azərbaycan Milli Elmlər Akademiyasının folklorşünaslıq üzrə bu gün fəaliyyət göstərən yeganə həqiqi üzvüdür, AMEA Folklor İnstitutunun direktoru olaraq folklorşünas alim kollektivinin flaqmanıdır. Bundan əlavə, Muxtar Kazımoğlu zəngin ictimai fəaliyyətlə də məşğuldur. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında Ədəbiyyat fənni üzrə Elmi-Metodiki Seminarın rəhbəri və Ekspert Şurasının sədri, İctimai Televiziya və Radio

Yayımları Şirkəti Yayım Şurasının üzvüdür. Bütün bunlardan əlavə, ən nəhayət, yüksək mənəvi dəyərlər daşıyıcısı kimi gözəl insandır, səmimi dostdur.

* * *

Muxtar Kazımoğlu Azərbaycan filoloji düşüncəsinə ümumən milli ictimai təfəkkürün demokratikləşdiyi, etnik-milli genezisə və milli-mənəvi dəyərlərə qayıdışın elmdə, sənətdə və həyatda ümummilli hərəkata çevrildiyi 80-ci illərin əvvəllərində gəlmişdir. Hesab edirik ki, bu amil onun elmi-filoloji maraq dairəsinin formalaşmasında, yaradıcı şəxsiyyət kimi milli mədəniyyətə münasibətdə elmi baxış bucaqlarının müəyyənləşməsində həlledici rol oynamışdır. O, ötən əsrin 80-ci illərinin ortalarında filoloji elmi yaradıcılığa həmin dövr üçün (elə indinin özündə də!) kifayət qədər elmi aktuallıq kəsb edən mürəkkəb bir nəzəri problemin (ədəbiyyatda psixologizm) kifayət qədər maraqlı bədii faktura üzərində (60-70-ci illər Azərbaycan nəsri) araşdırılması ilə başlamışdır.

1991-ci ildə nəşr olunan "Müasir Azərbaycan nəsrində psixologizm" kitabında müəllif İsa Hüseynov, İsmayıl Şıxlı, Sabir Əhmədov, Anar, Əkrəm Əylisli, Elçin, Mövlud Süleymanlı kimi nasirlərin bədii yaradıcılığını psixologizm aspektindən tədqiqat predmetinə çevirir. Bu tədqiqat alimin fililoji təfəkkürünün analitik-nəzəri səpkiyə, milli folklor potensiyasına (artıq normativləşmiş qənaətə görə 60-70-ci illər Azərbaycan nəsri öz genetik qaynağı etibarilə epos təfəkkürünə söykənir) elmi marağının ifadəsi olmaqla onun yaradıcı təfəkkürünün tipoloji oriyentasiyasını da əsaslı olaraq müəyyənləşdirmiş olur.

Muxtar Kazımoğlunun elmi yaradıcılıq təkamülünün 80-ci illərin ortalarından bu günədək qət etdiyi yolu ən ümumi şəkildə aşağıdakı kimi cizgiləmək olar:

– elmi təsnifat baxımından ədəbiyyatşünaslıqdan folklora;

– janr təsnifatı baxımından romandan (povestdən, hekayədən...) eposa (nağıla, lətifəyə...);

– nəzəri problematika baxımından psixologizmdən onun konkret təzahür formalarından biri olan və mühüm elmi-kateqorial anlayış kimi götürülən gülüş anlayışına.

Hazırda Muxtar Kazımoğlu zahirən fərqli elmi problemlərlə məşğul olmuş kimi görünsə də, əslində otuz il bundan əvvəl başladığı işi davam etdirir. Hələ nəsrdə psixologizm problemi üzərində araşdırmalar apararkən müəllifin nəsrin ən müasir nəzəri problemlərini folklorla vəhdətdə araşdırdığının, şıfahi və yazılı ədəbiyyatı eyni bir təhlil kontekstində birləşdirdiyinin şahidi oluruq. Sonralar da yazılı və şifahi ədəbiyyat paralelliyi onun yaradıcılığının xarakterik xüsusiyyətinə çevrilir.

Müəllifin "Gülüşün arxaik kökləri" (2005) və "Xalq gülüşünün poetikası" (2006) kitabları həm problematikası, həm də problemə elmi-metodoloji yanaşması baxımından müasir Azərbaycan folklorşünaslığında yeni bir istiqamətin əsasını qoyan əsərlərdir. Yazılı ədəbiyyatla bağlı kifayət qədər geniş təhlil olunmuş gülüş anlayışı bu əsərlərdə ilk dəfə olaraq sistemli şəkildə folklor üzrə araşdırılır, gülüşün magik mahiyyəti, ayrı-ayrı folklor obrazlarının gülüş aspektindən genezisi kimi problemlərə işıq salınır. Aydın görünür ki, gülüşün arxaik köklərinə elmi maraq nəsrdə psixologizm axtarışlarının təbii davamıdır. Gülüş Muxtar müəllimin təqdimatında gerçəkliyə münasibətin hər hansı bir fiziki-bioloji faktoru kimi deyil, xüsusi semantikaya malik elmi-kateqorial paradiqma kimi təhlil olunur.

Kitabların elmi dəyəri ondadır ki, aparılan tədqiqatın nəzəri ümumiləşdirilməsi olaraq humanitar düşüncəyə

Azərbaycan xalq gülüş mədəniyyəti ilə bağlı yeni elmi konsepsiya təqdim olunur.

2011-ci ildə müəllifin indiyədək milli filoloji və folklorşünaslıq düşüncəmizdə heç bir aspekti ilə elmi tədqiqatın predmetinə çevrilməyən digər bir nəzəri problemə həsr olunmuş "Folklorda obrazın ikiləşməsi" kitabı nəşr olunur. Əsərdə müxtəlif folklor janrlarında, xüsusən nağıl, dastan, lətifə və s. kimi epik janrlarda "ciddi" və komik yöndəki ikiləşmənin folklordakı mahiyyəti, mifoloji kökləri və təzahür formaları elmi tədqiqatın predmetinə çevirir. Bu araşdırmada ilk dəfə olaraq bədii obrazın ikiləşməsinin mifdən gələn və folklorun müxtəlif janrlarında təzahür edən, yazılı ədəbiyyatda daha mürəkkəb şəkildə ortaya çıxan səciyyəvi modelləri müəyyənləşdirilir.

2012-ci ildə nəşr olunan "Epos. Nəsr. Problemlər" kitabına müəllifin müxtəlif illərdə həm ayrı-ayrılıqda epos və nəsr probleminə, həm də epos və nəsrin qarşılıqlı əlaqələrinə həsr olunmuş məqalələri daxil edilmişdir. Eposda obrazın ikiləşməsi, Mənfi əvəzedici, Yalançı qəhrəman kimi məsələlər ənənəvi ədəbiyyatşünaslıqda özünə yer tapa bilməyən, müasir dünya, xüsusən də Avropa folklorşünaslığının elmi-nəzəri bazası əsasında qələmə alınan ciddi problemlərdəndir. Müəllif buradakı elmi yanaşmaları ilə yazılı ədəbiyyat və folklor münasibətlərinə yeni baxış ortaya qoyur, ədəbi düşüncənin yazılı və şifahi laylarına etnik bədii özünüifadənin müxtəlif kodları kimi yanaşılmasının orijinal nəzəri təhlil standartlarını təqdim edir.

2013-cü ildə nəşr olunan "Portretlər" kitabında "Yazıçılar" və "Ədəbiyyatşünaslar" bölmələri üzrə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Molla Pənah Vaqif, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə kimi ədiblər, Məmməd Cəfər, İsa Həbibbəyli, Qəzənfər Paşayev, Nizami Cəfərov, Kamran Əliyev kimi ədəbiyyatşünaslar "portretləşdirilir". Bu kitabda ideya-estetik məfkurəsi

baxımından bir-birindən fərqli ədəbi və elmi simalardan bəhs edilsə də, onların hamısı vahid Azərbaycan mədəniyyəti kontekstində birləşdirilir. Kitabda seçilən portretlərin fəaliyyət sahələrinin çoxprofilliliyi müasir Azərbaycan ictimai düşüncəsini narahat edən məqamlara gətirib çıxarır və müəllif ayrı-ayrı ədiblərin simasında ictimai-mədəni düşüncəni narahat edən problemlərə öz baxışlarını və münasibətini ortaya qoyur.

2014-cü ildə müəllifin "Folklor həm keçmiş, həm də bu gündür" kitabı işıq üzü görür. Burada biz Muxtar müəllimi bir alim olmaqla yanaşı, eyni zamanda bir publisist kimi də kəşf edirik.

Muxtar müəllim həmin kitabın sonunda yer alan müsahibəsində qeyd edir ki, folklorda qəribə bir sadəlik var və bu, müdrikanə sadəlikdir. Belə bir müdrikanə sadəliyi onun öz elmi yaradıcılığına da şamil etmək mümkündür. Onun elmi yaradıcılığı indi filologiyada və folklorşünaslıqda geniş yayılmış, bir çox hallarda yaradıcı elmi təfəkkürün səmimi inkişaf dialektikasından deyil, elmi görünmək, orijinal təsir bağışlamaq mərəzindən qaynaqlanan terminoloji əllaməçilikdən, sintaksisin süni mürəkkəbləşdirilməsindən tamamilə uzaqdır. Onun əsərlərində elmi düşüncə təbii sadəliyindəcə təqdim edilir. Və bu səmimi sadəlik ən mürəkkəb elmi mətləbləri izah etməklə özünüifadə mədəniyyətinin təvazöyə əsaslanan yüksək nümunəsi kimi faktlaşır.

* * *

Uzun illər ərzində apardığı gərgin elmi axtarışları, bu elmi axtarışların nəticəsi olaraq nəşr etdirdiyi çoxsaylı məqalələri, toplama-tərtib işləri, monoqrafiyaları ilə müasir elmi-ədəbi və mədəni-ictimai mühitdə orijinal təfəkkür sahibi, filoloq-folklorşünas kimi ciddi və nüfuzlu alim

imicinə malik Muxtar Kazımoğlu son illərdə Folklor İnstitutunun direktoru vəzifəsini uğurla yerinə yetirərək bacarıqlı bir elm təşkilatçısı olduğunu da sübut etdi. Ötən əsrin 90-cı illərinin ortalarından ümummilli lider Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunması, tədqiqi və təbliği, ümumtürk ədəbi abidələrinin, xüsusən "Kitabi-Dədə Qorqud"un öyrənilməsi istiqamətində həyata keçirdiyi siyasətin, hətta belə demək mümkünsə, mədəni hərəkatın humanitar elmi düşüncəmizdə rezonansının məntiqi nəticəsi olaraq meydana gələn Folklor İnstitutu Akademiyanın nisbətən gənc struktur vahidlərindəndir.

XX əsr Azərbaycan humanitar-ictimai fikrinin görkəmli nümayəndələrindən olan Yaşar Qarayevin ideya moderatorluğu və folklorşünas alim Hüseyn İsmayılovun elmi-təşkilati icraçılığı ilə ərsəyə gələn Folklor İnstitutu hazırda Azərbaycanın humanitar infrastrukturunun həm elmi, həm də inzibati-təşkilati baxımdan əsas mərkəzlərindən biridir. Heç bir mübaliğəyə yol vermədən deyə bilərik ki, hazırda akademik humanitar qurumlarımız içərisində müasir dünyanın elmi-metodoloji istiqamətdəki yeniliklərinə ən çevik reaksiya verən İnstitutlardan biri Akademiyanın Folklor İnstitutudur. Bunun bir səbəbi İnstitutun ideya əsaslarında "Yaşar Qarayev mənəvi-intellektual stixiyası"nın dayanmasıdırsa, digər səbəbi burada hər cür intriqadan kənar sağlam elmi mühitin, yaradıcı ab-havanın mövcudluğu, güclü kadr potensialının olmasıdır.

2009-cu ildə İnstitutun direktoru Hüseyn İsmayılovun səhhətində yaranan problemlərdən sonra bir müddət İnstitutda idarəçilik böhranı yaşandı. Akademiyanın Rəyasət Heyətində çalışdığım üçün "daxili mətbəxə" bələd bir şəxs kimi bilirəm ki, həmin vaxtlar bəzi diletantlar inzibati resursları nisbətən kövrək olan Folklor İnstitutunun Akademiyanın digər müvafiq qurumları ilə birləşdirilməsi kimi tamamilə əsassız, pərdələnmiş şəxsi maraqlara xidmət

edən fikirlər səsləndirdilər. Belə bir vaxtda elmi yaradıcılığının miqyas və sanbalı, həmçinin şəxsiyyət bütövlüyü ilə mühitdə boy verən Muxtar Kazımoğlu faktoru Folklor İnstitutunu korporativ maraqların qurbanına çevrilməkdən xilas etdi. O, İnstitutun direktoru seçilərək xarakterindəki təmkin və sadəliyinə görə çoxlarının təsəvvür edə bilməyəcəyi bir əzmlə fəaliyyətə başladı. Onun inteqtariv aurası ən müxtəlif xarakterə və ambisiyaya malik, dünyanın istənilən nöqtəsində yaşayan bütün alimlər kimi "qəribə adamlar" kateqoriyasına malik folklorşünas alimləri bir yerə cəm edib yola davam etməyə imkan verdi. Beləliklə, onun rəhbərliyi ilk andanca "irs və varis əlaqələri"nə dialektik yanaşmanın ən yaxşı nümunəsinə çevrildi: indiyədək görülmüş işlər yeni keyfiyyətdə və miqyasda davam etdirildi, bir sıra yalnız elmi deyil, həm də ümummilli əhəmiyyətli yeni layihələrin əsası qoyuldu. Muxtar Kazımoğlu humanitar elm sahəsinin bütün istedadlı nümayəndələri kimi inzibati idarəçilikdən, demək olar ki, uzaqdır. Onun idarəçiliyi daha çox mənəvi prinsiplərə əsaslanan akademik idarəçilikdir. Və bu idarəçilik kollektivin yaradıcı enerjisinin vahid məcraya yönəldilməsində, konkret elmi nəticələrin əldə edilməsində inzibati idarəçilikdən heç də az effekt vermir. Mütəxəssislər yaxşı bilirlər ki, istənilən elmi istiqamətin institusional modeldə inkişafı həmin elmi sahənin həm dünyada gedən elmi proseslərə həmahəng olan, həm də ölkənin milli maraqları kontekstində düzgün müəyyənləşdirilən infrastruktur şəbəkəsinin müəyyənləşdirilməsindən asılıdır. Muxtar Kazımoğlu da, haqlı olaraq, Folklor İnstitutunun direktoru kimi fəaliyyətinə ilk növbədə İnstitutun elmi strukturunun əsaslı olaraq təkmilləşdirilməsindən başladı. Bilavasitə onun təşəbbüsü əsasında İnstitutun yeni strukturunun müəyyənləşdirilməsində folklorun dünyada öyrənilmə təcrübəsinin fundamental əsaslarından birini təşkil edən dioxronik yanaşma əsas

götürüldü (arxaik, klassik və müasir folklor-postfolklor). Burada İnstitutun elmi struktur bölmələrinin (arxaik folklorun öyrənilməsi üzrə: "Mərasim folkloru" və "Mifologiya" şöbələri, klassik folklorun öyrənilməsi üzrə: "Klassik folklor", "Dədə Qorqud", "Aşıq yaradıcılığı" şöbələri, müasir folklorun öyrənilməsi üzrə: "Müasir folklor" şöbəsi, zəngin folklor musiqisinin araşdırılması üzrə: "Musiqi folkloru" şöbəsi) struktur-funksional xüsusiyyətləri ilə onların şəbəkə olaraq struktur keyfiyyətlərinin optimal uyğunlaşdırılması tam nəzərə alınmış oldu. Həmçinin İnstitutun struktur şəbəkəsinin təkmilləşdirilməsi elmi fəaliyyətin idarə edilməsinin optimallaşdırılması fonunda aparılmaqla bu qurumun özünü təşkil edən elm sisteminə çevrilməsinə tam nail olundu.

Muxtar Kazımoğlunun institut rəhbəri kimi elmi-təşkilati fəaliyyətindən bəhs edərkən son illər zəngin Azərbaycan folklorunun məhz folklorşünaslıq elmi prinsipləri baxımından toplanması, sistemləşdirilməsi və nəşri sahəsindəki keyfiyyət və kəmiyyət dəyişikliyi üzərində də xüsusi dayanmaq lazımdır. Cəsarətlə demək olar ki, Azərbaycan folklorşünaslığı tarixində heç bir mərhələdə bu keyfiyyətdə və kəmiyyətdə toplama həyata keçirilməmişdir. Folklorun spesifikası belədir ki, formalaşmış elmi prinsiplər əsasında uğurlu toplama olmadığı halda ən modern nəzəriyyəçilik belə havadan asılı vəziyyətdə qalmış olur. Və bu halda nəzəri folklorşünaslığın əsas vəzifələrindən biri kimi təqdim olunan universallaşmış bilik əsasında kollektiv yaddaşdan etnik dünya modelinin rekonstruksiyası da elmi blefdən başqa bir şey olmur. Şifahi ənənədə mövcud olan folklor mətnlərinin kollektiv yaddaş daşıyıcısı olan infarmatorlardan mümkün qədər zədəsiz və zamanında toplanılması xüsusi intellektual-metodoloji, bəzi hallarda hətta psixoloji hazırlıq tələb edən, eyni zamanda fiziki zəhmət bahasına başa gələn bir işdir. Bu

sahədəki fəaliyyəti müasir tələblər səviyyəsində qurmaq üçün Muxtar müəllim İnstitutun strukturunda müstəqil "Folklorun toplanması və sistemləşdirilməsi" şöbəsinin əsasını qoydu, şöbəni lazımi kadr potensialı ilə təmin etdi, ümumiyyətlə, yaradıcı kollektivin diqqətini bu istiqamətdəki fəaliyyətə yönəltdi. Az bir müddət ərzində həm Azərbaycanın mövcud inzibati ərazi hüdudları daxilindən (Qazax, Masallı, Ağcabədi, Bərdə), həm də tarixi Azərbaycan torpaqları ərazilərindən (Güney Azərbaycan, Dərbənd, Borçalı) xeyli folklor toplanıb tədqiqatçıların və geniş oxucu kütləsinin ixtiyarına verildi.

Bir məsələni xüsusilə qeyd etmək istərdim. 2012-ci ildə Azərbaycanın etnik-mədəni bölgələrindən biri üzrə folkrun toplanması, sistemləşdirilməsi, tədqiqi və nəşri üçün xüsusi layihənin həyata keçirilməsinə əlverişli şərait yaranmışdı. Layihə üçün müvafiq regionun müəyyənləşdirilməsi istiqamətində İnstitutda aparılan gərgin müzakirələrdə Muxtar müəllimin doğulub boya başa çatdığı Naxçıvan da daxil olmaqla müxtəlif regionlar gündəmə gəldi, fərqli arqumentlər səsləndirildi. Bu müzakirələr prosesində Muxtar müəllim təkidlə Qarabağ üzərində dayandı və digər folklorşünasları da bu istiqamətdə fəaliyyətin zəruriliyinə inandıra bildi. Və kiçik bir işçi qrupu ilə layihə çərçivəsində iş başladı, az bir müddət ərzində yalnız Azərbaycanın və Qafqazın deyil, bütövlükdə planetin qədim sivilizasiya mərkəzlərindən olan, hazırda isə ermənilər tərəfindən işğal edilmiş, əhalisi didərgin salınmış, bütün sosial-mədəni infrastrukturu dağıdılmış, sərvətləri talan edilmiş Qarabağın tamamilə məhv olmaq təhlükəsi qarşısında olan folklor örnəklərinin toplanması, tədqiqi və təbliği sahəsində, sözün həqiqi mənasında, inqilabi bir iş görüldü.

Təkcə bir statistik faktı qeyd etmək kifayətdir ki, görülən işin miqyası və ümummilli səviyyədə elmi, eyni zamanda ictimai əhəmiyyəti aydın olsun: Muxtar

Kazımoğlunun rəhbərliyi ilə həyata keçirilən bu layihənin nəticəsi olaraq masa üzərinə hər biri beş yüz səhifəyə yaxın 10 cild "Qarabağ: folklor da bir tarixdir" fundamental akademik nəşri qoyuldu. Muxtar Kazımoğlunun Qarabağ folklorunun toplanması ilə bağlı həyata keçirdiyi bu layihə folklorşünas alimin uğurlu elmi fəaliyyəti olmaqdan daha çox, Azərbaycan ziyalısının Vətən və xalq qarşısında vətəndaşlıq məsuliyyətinin və ziyalı cavabdehliyinin göstəricisi, dövlətçiliyə sədaqətin nümunəsi idi. Hazırda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dövlət orqanlarının ölkə daxilində fəaliyyət və səylərinin uzlaşdırılması, Azərbaycan Respublikasına qarşı təcavüz və ərazisinin bir hissəsinin işğalı zamanı xalqımıza qarşı törədilmiş soyqırımın, "erməni problemi"nin hərtərəfli şəkildə dərindən tədqiqi, həqiqətlərin üzə çıxarılması və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindəndir. Belə bir şəraitdə ixtisas sahəsindən asılı olmayaraq, Azərbaycan alimlərinin, ziyalılarının qarşısında duran əsas vəzifələrindən biri bu problemin həlli istiqamətində Azərbaycan dövlətinin apardığı siyasətə dəstək verməkdir. Çox təqdirəlayiq haldır ki, Azərbaycanın tarixçi alimləri Qarabağ həqiqətlərinin tədqiqi istiqamətində xeyli uğurlar əldə etmişlər. Bu işlərin yeni miqyasda davam etdirilməsi zərurətinin nəticəsidir ki, yaxın günlərdə AMEA-nın strukturunda Qafqazşünaslıq İnstitutunun yaradılması ilə bağlı qərar qəbul edildi. Bax belə bir şəraitdə Qarabağ folklorunun toplanması və tədqiqi yalnız elmi deyil, xüsusi ümummilli əhəmiyyət daşıyır.

Muxtar Kazımoğlunun elmi-təşkilati fəaliyyətinə digər bir baxış bucağından da nəzər salmaq istərdim. Hamıya yaxşı məlumdur ki, indi Akademiyanın prezidenti, akademik Akif Əlizadənin bilavasitə rəhbərliyi ilə elmi fəaliyyət sahəsində çoxprofilli islahatlara start verilmişdir.

Dünya elminə sürətli inteqrasiya, Azərbaycan elminin ölkədə formalaşmaqda olan biliklər iqtisadiyyatının lokomotivinə çevrilməsi, qabaqcıl texnologiya və metodlara yiyələnmə, elektron elmin bərqərar olması, elmin gəncləşməsi, yüksək səviyyəli kadr hazırlığı, istedadlı gənclərin alim kimi yetişdirilməsi, yeni multidissiplinar araşdırmaların aparılması bu islahatların tam olmayan ideya istiqamətlərini təşkil edir.

Akademik Akif Əlizadə AMEA-da elmi qurumların işinin yenidən qurulmasına, Azərbaycan dövlətinin və cəmiyyətinin marağına səbəb olacaq yeni elmi prioritetlərin müəyyənləşdirilməsinə böyük əhəmiyyət verir. Həyata keçirilən islahatların ayrıca blok-istiqamətlərindən birini ictimai və humanitar elm sahələrinin işinin müasir tələblər səviyyəsində qurulması təşkil edir. Akademiyanın humanitar və ictimai elmlər üzrə vitse-prezidenti, tanınmış alim və ictimai xadim, akademik İsa Həbibbəylinin rəhbərliyi ilə Azərbaycanın arxeologiyasını, tarixini, mədəniyyətini, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini, ictimai-fəlsəfi, sosial-hüquqi, ədəbi-bədii fikir tarixini, dilini, etnoqrafiyasını, folklorunu öyrənən elm sahələrinin inkişaf etdirilməsi, Azərbaycançılıq ideologiyasının elmi-nəzəri əsaslarının tədqiqi və fundamental istiqamətlərinin müəyyənləşdirilməsi, qloballaşan və virtuallaşan müasir dünyada milli dəyərlərin qorunmasında humanitar potensialın yaxından iştirakına nail olunması və s. istiqamətlərdə kompleks tədbirlər həyata keçirilməkdədir. Belə bir şəraitdə Akademiyada hər hansı bir istiqamət üzrə elmi müəssisəyə rəhbərlik etmək xüsusi məsuliyyət, sözün həqiqi mənasında həmin sahəyə elmi və inzibati sahiblik etmək istedadı və bacarığı, eyni zamanda fasiləsiz məqsədyönlü fəaliyyət və təşəbbüskarlıq tələb edir.

Muxtar müəllim istər özünün fərdi elmi axtarışları, istərsə də elmi-təşkilati fəaliyyəti ilə İnstitutu daim yeni

islahatların ritminə kökləyir, bunun da nəticəsində Folklor İnstitutu daim yeni-yeni "ilk"lərə imza atır. Belə "ilk"lərdən biri Akademiya rəhbərliyinin maddi və mənəvi dəstəyi əsasında Respublikada ilk dəfə olaraq ayrıca bir məkanda, ən müasir avadanlıqlarla təchiz olunmuş Folklor studiyasının yaradılmasını xüsusi qeyd etmək lazımdır. Neçə-neçə yeni layihələr isə öz uğurlu həllinə doğru start götürmüşdür.

* * *

Uzun illər Muxtar müəllimlə yaxın münasibətdə olan bir şəxs kimi onun insani xüsusiyyətlərini, ən mürəkkəb situasiyalarda davranışını şərtləndirən mənəvi-əxlaqi prinsipləri yaxından müşahidə etmək imkanım olmuşdur. Muxtar müəllimin zahirən büruzə vermədiyi, daxilən müqəddəs hesab etdiyi elə bir ali mənəvi prinsip var ki, istər elmi, istər təşkilati, istərsə də ictimai fəaliyyətində, hətta adi məişət davranışlarında heç vaxt onun pozulmasına yol vermir. Bu prinsip bizim yaxından tanıdığımız Muxtar müəllimin daxili şəxsiyyət bütövlüyünü şərtləndirən əsas amildir. Hansısa şəxsi maraq, hətta hansısa "ali konyuktura" naminə olsa belə, bu prinsipin pozulması, mən bilirəm ki, Muxtar müəllim üçün bağışlanılmazdır. O bu cür daxili xəyanəti, xalq deyim tərziylə, "urvatdan düşmək" adlandırır. Məhz belə bir prinsipsizliyə getməmək üçün vaxtilə ədəbi tənqiddən uzaqlaşmışdı.

Muxtar müəllim olduqca təvazökar və işgüzar bir həyat sürür. Çoxları üçün istirahət mövsümü olan yay məzuniyyətləri onun üçün ən əlverişli elmi yaradıcılıq fürsətidir. Yay məzuniyyətlərində "hal-əhval üçün" onunla zəngləşərkən hansısa bir elmi məqaləni tamamlamaq və ya hansısa bir yazı üzərində işləmək barədə necə həvəslə danışdığını yaxşı xatırlayıram. Tanrı ona təmənnasız və ən başlıcası minnətsiz xeyirxahlıq etmək bacarığı bəxş

etmişdir. Onun ətrafında xeyli sayda istedadlı gənclər var ki, onların ayaqda durması, itib-batmaması üçün onlara adi məişət problemlərinin həllinə qədər yardım edir.

Muxtar müəllimin xarakterində daxili kövrəkliklə zahiri sərtliyin qəribə bir sintezi vardır. Dəfələrlə şahidi olmuşam ki, o, ən mötəbər ali tribunalardan sözü birbaşa, gəldiyi sərtlikdə (və məntiqilikdə) deyib, hansısa hadisəni daxilən bütün kövrəkliyi və şairanəliyi ilə yaşayıb. Hamımızın sevimlisi, gözəl ziyalı Arif Əmrahoğlu ağır xəstəliyə düçar olarkən, nə qədər gizlətməyə çalışsa da, biz anladıq ki, yaxın adam itkisi Muxtar müəllim üçün nə demək imiş...

Ömrün müdriklik çağında Muxtar müəllimə yeni-yeni nailiyyətlərə imza atmağı, ailə üçün, dostlar üçün, elm üçün var olmağı, həyatın bütün keşməkeşlərinə bundan sonra da müdrikcəsinə yanaşmağı arzulayıram.

**Sərxan XAVƏRİ**
*filologiya üzrə fəlsəfə doktoru*

# ƏSƏRLƏRİNİN BİBLİOQRAFİYASI

*Kitabları*

## 1991

**1.** Müasir Azərbaycan nəsrində psixologizm [Mətn] : monoqrafiya / M.İmanov-Qardaşlı; red. M.C.Cəfərov. – Bakı: Elm, 1991. − 116 s.

## 2004

**2.** Ədəbiyyat nəzəriyyəsi. Test tapşırıqları [Mətn] : ümumtəhsil məktəblərinin 9-10-11-ci sinifləri üçün dərs vəsaiti / M.Kazımoğlu-İmanov [və b.]; elmi red.: M.Kazımoğlu-İmanov, İ.Əhmədzadə; rəyç.: V.Məmmədova, M.Hüseynov. – Bakı: Abituriyent, 2004. – 116 s.

## 2005

**3.** Ədəbiyyat nəzəriyyəsi. Test tapşırıqları [Mətn] : ümumtəhsil məktəblərinin 9-10-11-ci sinifləri üçün dərs vəsaiti / M.Kazımoğlu-İmanov [və b.]; elmi red.: M.Kazımoğlu-İmanov, İ.Əhmədzadə; rəyç.: V.Məmmədova, M.Hüseynov. – Bakı: Abituriyent, 2005. – 116 s.

**4.** Gülüşün arxaik kökləri [Mətn] : monoqrafiya / M.Kazımoğlu-İmanov; elmi red. və ön sözün müəl-fi K.Əliyev; rəyç.: T.Fərzəliyev, Ə.Əsgər. – Bakı: Elm, 2005. − 186 s.

## 2006

**5.** Ədəbiyyat nəzəriyyəsi. Test tapşırıqları [Mətn] : ümumtəhsil məktəblərinin 10-11-ci sinifləri üçün dərs vəsaiti / M.Kazımoğlu-İmanov [və b.]; elmi red.: M.Kazımoğlu-İmanov, İ.Əhmədzadə; rəyç.: V.Məmmədova, M.Hüseynov. – Bakı: Abituriyent, 2006. – 116 s.

**6.** Xalq gülüşünün poetikası [Mətn] : monoqrafiya / M.Kazımoğlu-İmanov; elmi red. A.Əmrahoğlu; rəyç.: İ.Abbaslı, Ə.Əsgər. – Bakı: Elm, 2006. − 266 s.

**2007**

**7.** Azərbaycan dili. Test tapşırıqları [Mətn] : ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərs vəsaiti / M.Kazımoğlu-İmanov [və b.]; rəyç.: T.Hacıyev, M.Hüseynov. – Bakı: Abituriyent, 2007. – 150 s.

**8.** Ədəbiyyat nəzəriyyəsi. Test tapşırıqları [Mətn] : ümumtəhsil məktəblərinin 10-11-ci sinifləri üçün dərs vəsaiti / M.Kazımoğlu-İmanov [və b.]; elmi red.: M.Kazımoğlu-İmanov, İ.Əhmədzadə; rəyç.: V.Məmmədova, M.Hüseynov. – Bakı: Abituriyent, 2007. – 116 s.

**9.** Ədəbiyyat. Test tapşırıqları [Mətn] : ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərs vəsaiti / M.Kazımoğlu-İmanov [və b.]; elmi red.: İ.Əhmədzadə, B.Həsənli; rəyç.: V.Məmmədova, M.Hüseynov. – Bakı: Abituriyent, 2007. – 150 s.

**2010**

**10.** Ədəbiyyat [Mətn] : qəbul imtahanlarına hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün vəsait / M.Kazımoğlu-İmanov [və b.]; elmi red. İ.Əhmədzadə. – Bakı: Abituriyent, 2010. – 680 s.

**2011**

**11.** Folklorda obrazın ikiləşməsi [Mətn] : monoqrafiya / M.Kazımoğlu-İmanov; red. Ə.Əsgər. – Bakı: Elm, 2011. − 228 s.

**2012**

**12.** Epos. Nəsr. Problemlər [Mətn] : monoqrafiya / M.Kazımoğlu-İmanov; elmi red. L.Süleymanova. – Bakı: Elm, 2012. – 164 s.

## 2013

**13.** Portretlər [Mətn] : məqalələr toplusu / M.Kazımoğlu-İmanov; red.: S.İsayeva. – Bakı: Nurlan, 2013. – 184 s.

## 2014

**14.** Ədəbiyyat fənni üzrə test tapşırıqları [Mətn] : ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün vəsait / M.Kazımoğlu-İmanov [və b.]; elmi red. K.Əliyev; rəyç.: V.Məmmədova, M.Hüseynov, S.İbrahimov. – Bakı: Abituriyent, 2014. – 176 s.

**15.** Ədəbiyyat nəzəriyyəsi [Mətn] : ümumtəhsil məktəblərinin 10-11-ci sinfi üçün vəsait / M.Kazımoğlu-İmanov [və b.]; elmi red.: M.Kazımoğlu-İmanov, İ.Əhmədzadə; rəyç.: V.Məmmədova, M.Hüseynov, K.Əliyev. – Bakı: Abituriyent, 2014. – 120 s.

**16.** Folklor həm keçmiş, həm də bugündür [Mətn] : məqalələr toplusu / M.Kazımoğlu-İmanov; elmi red. S.İsayeva. – Bakı: Elm və təhsil, 2014. − 194 s.

## 2015

**17.** Azərbaycan dili fənni üzrə test tapşırıqları [Mətn] / M.Kazımoğlu-İmanov [və b.]; elmi red. T.Hacıyev; rəyç.: M.Hüseynov, S.Zeyniyeva. – Bakı: Abituriyent, 2015. – 160 s.

**18.** Ədəbiyyat fənni üzrə test tapşırıqları [Mətn] : ümumtəhsil məktəblərinin 11-cu sinfi üçün vəsait / M.Kazımoğlu-İmanov [və b.]; elmi red. B.Həsənli; rəyç.: V.Məmmədova, M.Hüseynov, E.Talıblı. – Bakı: Abituriyent, 2015. – 160 s.

**19.** Sənət qayğıları [Mətn] : məqalələr toplusu / M.Kazımoğlu-İmanov; red. V.İsgəndərova. – Bakı: Elm və təhsil, 2015. − 192 s.

**2017**

**20.** Генезис и поэтика смеха в азербайджанском фольклоре [Текст] / М.Казымоглы-Иманов; науч. ред. С.Османлы. – Баку: Элм ве техсил, 2017. − 360 с.

*Tərtib etdiyi kitablar*

**1993**

**21.** Aşıq Ələsgər. Gözüm bir alagöz xanıma düşdü [Mətn] : say-seçmə şeirlər / tərt. M.İmanov-Qaradaşlı; red. F.Rzabəyova. − Bakı: Yazıçı, 1993. − 144 s.

**1995**

**22.** Bu yurd bayquşa qalmaz [Mətn] : folklor nümunələri / topl. tərt. M.Kazımoğlu-İmanov, V.Nəbioğlu, Ə.Əsgər. − Bakı: Yazıçı, 1995. − 240 s.

**2005**

**23.** Azərbaycan folkloru antologiyası [Mətn] / topl. tərt.: M.Kazımoğlu-İmanov, Ə.Əsgər. – Bakı: Səda, 2005. − XII kitab. Zəngəzur folkloru. – 463 s.

**2011**

**24.** Azərbaycan folkloru külliyyatı [Mətn] / tərt. və məs. red. M.Kazımoğlu-İmanov. – Bakı: Elm və təhsil, 2011. − 27-ci cild. – 292 s.

**2016**

**25.** Gədəbəy folklor örnəkləri [Mətn] / tərt.: M.Kazımoğlu-İmanov, S.İsayeva; elmi red. İ.Rüstəmzadə. – Bakı: Elm və təhsil, 2016. – I kitab. – 360 s.

**26.** Şərur folklor örnəkləri [Mətn] / topl. M.Kazım-oğlu-İmanov [və b.]; red. İ.Rüstəmzadə. – Bakı: Elm və təhsil, 2016. – I kitab. – 348 s.

*Elmi rəhbərliyi ilə nəşrə hazırlanan kitablar*

### 2012

**27.** Qarabağ: folklor da bir tarixdir [Mətn] / layihə rəhb. M.Kazımoğlu-İmanov; topl. tərt.: İ.Rüstəmzadə, Z.Fərhadov; red. L.Süleymanova. – Bakı: Elm və təhsil, 2012. – I kitab (Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri). – 464 s.

**28.** Qarabağ: folklor da bir tarixdir [Mətn] / layihə rəhb. M.Kazımoğlu-İmanov; topl.: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov, Z.Fərhadov; tərt. İ.Rüstəmzadə; red. E.Abbasov. – Bakı: Elm və təhsil, 2012. – II kitab (Bərdə və Ağcabədi rayonlarından toplanmış folklor örnəkləri). – 484 s.

**29.** Qarabağ: folklor da bir tarixdir, [Mətn] / layihə rəhb. M.Kazımoğlu-İmanov; tərt. İ.Rüstəmzadə; red. E.Abbasov. − Bakı: Elm və təhsil, 2012. – III kitab (Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın və Şuşa rayonlarından toplanmış folklor örnəkləri). – 468 s.

**30.** Şəki folklor mühiti [Mətn] / L.Süleymanova; elmi red. Ə.Əsgər; rəyçi M.Kazımoğlu-İmanov. – Bakı: Elm və təhsil, 2012. – 248 s.

### 2013

**31.** Aşıq Şəmşirin anadan olmasının 120 illiyinə həsr olunmuş "Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq

Şəmşir mərhələsi” elmi konfransının materialları [Mətn] / layihə rəhb. M.Kazımoğlu-İmanov; elmi red.: A.Cəmil, S.İsayeva, N.Qurbanov. – Bakı: Nurlan, 2013. – 408 s.

